# Minora Dolğu Lakı

## Texniki Məlumat Səhifəsi

### Məhsul təqdimatı

Penguin Minora Dolğu Lakı akrilik emulsiya əsaslı, su bazlı parket dolğu lakıdır. Taxta və parketin birləşmə yerlərini dolduraraq üzərinə tətbiq olunacaq son qat lakının əmiciliyinin qarşısını alır və sərfiyyatını azaldır. Taxtanın təbii rəngini korlamır. Dolduruculuq qabiliyyəti yüksək, cilalanması mükəmməl, tətbiqi rahatdır.

### İstifadə olunacaq səthlər

Penguin Minora Dolğu Lakı hər növ taxta parket, taxta nərdivan və lambirin səthlərdə istifadə olunur.

### Çəkilən qat qalınlığı və nəzəri yayılma sahəsi

| | Ən az | Ən çox |
|---|---|---|
| **Nəzəri yayılma sahəsi ($m^2$/l)** | 14 | 20 |

### Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Şəffaf |
| **Kütləcə qatı maddə miqdarı (kütlə %)** | 33-34 |

### Səthin hazırlanması

Yeni səthlər yağ, kir və toz qalıqlarından təmizlənməlidir. Köhnə taxta və parket səthlərində sumbatalama prosesi aparılmalı və daha sonra səth təmizlənməlidir.

### Rənglənmə qaydaları

İstifadəyə hazırdır, ehtiyac olduqda su ilə incəldilə bilər. Ümumilikdə tək qat tətbiqi kifayətdir. Səthin vəziyyətindən asılı olaraq 2-ci qat tətbiq oluna bilər. Fırça və ya rulo ilə vurulduqda, tək qatdan çox vurulacaqsa, qatlar arasında 2 saat gözləmək lazımdır. Havasız tapança ilə istifadə olunduqda məhsul 5-10% su ilə incəldilməli və yaxşıca qarışdırıldıqdan sonra tətbiq olunmalıdır. Səthin növündən asılı olaraq 2-3 çarpaz qat halında tətbiq olunur. Son qat tətbiq olunduqdan 24 saat sonra səth cilalanır və üzərinə lak tətbiq olunur.

### Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.
- Neytral səthə 1 qat tətbiq olunur.
- Nisbi rütubət 70%-dən yuxarı olmamalıdır.
- 25°C temperaturda 2 saata quruyur. Tam quruma müddəti 3 saatdır.

### Tövsiyə olunan rəngləmə sistemi

| | |
|---|---|
| **Penguin Minora Dolğu Lakı** | 2 qat |
| **Penguin Minora Parket Lakı** | 2 qat |

**"CMT GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az

# Minora Dolğu Lakı

## Texniki Məlumat Səhifəsi

### Saxlama şərtləri

Məhsul sərin, yaxşı havalandırılan depolarda saxlanılmalıdır. İstilik və qığılcım çıxma ehtimalı olan yerlərdən uzaq tutulmalıdır. Qab hava almayacaq dərəcədə bağlı olmalıdır.

### Qablaşdırılma şəkli

5 lt-lik plastik qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Məhsulun rəngi

Su əsaslı pastalar ilə istənilən rəng rənglənə bilər. Məhsulun rəngində partiyadan partiyaya kiçik fərqlilikləri mövcud ola bilər.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

---

***Qeyd:*** *“CMT GROUP” MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**“CMT GROUP” MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az